

# Deputatdan telekanallara irad

**Dünən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib.**

İclasda çıxış edən **deputat Tahir Rzayev** bildirib ki, bu gün sosial şəbəkələr, bəzi saytlar, portallar, telekanallar insanlara qəddarlıq, vəhşilik hissləri təbliğ edirlər.

Deputat qeyd edib ki, qəddarlığı, vəhşiliyi təlqin etmək insanların şüuruna, tərbiyəsinə, sağlamlığına ciddi və mənfi təsirlərlə müşayiət olunur.

"Vaxtilə, ailədaxili məsələləri valideynlər, yaşlı adamlar öz aralarında həll edirdilər, uşaqları bu məsələlərdən uzaq tutardılar. Hətta ailənin ehtiyacını belə uşağa, övlada deməzdilər ki, ona pis təsir edər. Ancaq bu gün tam bunun əksi baş verir. İnternet, sosial şəbəkələr həyatımıza ciddi surətdə müdaxilə edir, daxil olur və bir çox hallarda da öz mənfi nəticəsini göstərir. Bu yaxınlarda özüm şahidi olmuşam- bir neçə azyaşlı qız uşağı internetdə tanış olub, sonra hamısı evdən qaçıb gediblər.

Onlardan yalnız 10 gün sonra xəbər tutmaq mümkün deyil. Onlar niyə qaçıblar, nə işlə məşğul olublar, bəlli deyil. Ona görə də insanların, xüsusilə uşaqlarımızın düşüncəsinə, psixikasına mənfi təsir edən, zərər yuran halların qarşısının alınması, bunun qanunvericiliklə tənzimlənməsi çox vacibdir".

**Deputat Ağacan Abiyev** isə Azərbaycan telekanallarında qaydasız döyüş idman növü üzrə kadrların yayımının dayandırılmasını təklif edib. Milli Məclisin üzvü bildirib ki, qaydasız döyüş televiziya tamaşaçılarında, xüsusilə uşaq və yeniyetmələrdə qəddarlıq hisslərinin aşılanmasına səbəb olur:

"Mən özüm idmançıyam və daha çox da idman verilişlərini izləyirəm. Televiziyalarda qaydasız döyüşlər yayımlanır ki, mən bunun tam əleyhinəyəm. Çünki bu, qəddarlıqdır, vəhşilikdir. Kimsə yerə yıxılır, uzanır, başqası da onun üzünə-gözünə döyəcləyir, onu qana boyayır. Belə də idman olar? Sovetlər dövründə eşidərdik ki, Amerikada belə bir yarış var və hamı onu pisləyərdi. İdmanda rəqibə qarşı kişilik, hörmət olur. Burada isə kişilik, hörmət yoxdur. Ona görə də hesab edirəm ki, bu cür yarışların yayımı dayandırılmalıdır. Hesab edirəm ki, insanlarda humanizm deyil, qəddarlığı aşılayan verilişlərin, yarışların yayımı dayandırılmalıdır"

# "Ən yaxşı foto və videosüjet"

## *Müsabiqənin qalibləri mükafatlandırıldı*



**Dünən Beynəlxalq Mətbuat Mərkəzində "Qanunsuz Parklamalara Qarşı Mübarizə" İctimai Hərəkatı və "AzadInform" İnformasiya Agentliyinin martın 3-də elan etdiyi paytaxt yollarında yol hərəkəti qaydalarının pozulması ilə bağlı "Ən yaxşı foto və videosüjet" müsabiqəsinin qalibləri mükafatlandırılıb.**

Modern.az xəbər verir ki, mükafatlandırma mərasimində çıxış edən "AzadInform" İnformasiya Agentliyinin baş redaktoru Niyaz Niftiyev qeyd edib ki, hamı üçün açıq olan müsabiqəyə göndərilən foto və videoların sayına heç bir məhdudiyyət qoyulmayıb, ümumilikdə 13 nəfər foto, 5 nəfər isə video göndərib. Onun sözlərinə görə çəkilən foto və video-süjetlərin əsas mövzusu sürət həddinin aşılması, avtomobillərin bir-biri ilə yarışa çıxması, qanunsuz parklamalar, sürücülərin tullantıları yolun ortasına atması və s. olub.

N.Niftiyev bildirib ki, bu cür yarışmaların keçirilməsində məqsəd sürücülük mədəniyyətinin səviyyəsini yüksəltməkdir. Baş redaktor qeyd edib ki, müsabiqəyə təqdim olunmuş foto və videosüjetlərdə qayda pozan sürücülər ilk növbədə özlərinə kənardan baxmaq imkanı əldə edirlər: "Ümüd edirik ki, bundan sonra həmin sürücülər sükan arxasında daha diqqətli və mədəni olmağa çalışacaqlar".

Tədbirdə çıxış edən "Qanunsuz Parklamalara Qarşı Mübarizə" İctimai Hərəkatının rəhbəri İsgəndər Quliyev bildirib ki, hər gün həyatımız üçün təhlükə yaradan, yol hərəkəti iştirakçılarına stress yaşadan bu cür sürücülərlə mübarizə aparaq lazımdır. Onun sözlərinə görə, artıq hər kəs dərk edib ki, yol hərəkəti qaydalarının pozulması hallarının qarşısını yalnız cərimə və sərt cəzalarla almaq mümkün deyil: "Bu işdə təbliğat və maarifləndirmə ən güclü vasitədir. Ümid edirik ki, bu cür müsabiqələr yol hərəkəti qaydalarının pozulması istiqamətində fayda verəcək".

İ.Quliyev müsabiqədə qalibləri öz məhsulları ilə mükafatlandıran "Veysəloğlu" Şirkətlər Qrupunun rəhbərliyinə də təşəkkür edib: "Bu kimi sosial layihələrdə "Veysəloğlu" Şirkətlər Qrupu hər zaman ictimai təşkilatlara və mediaya əstək verir".

Qeyd edək ki, sonda 4 qalibə (Yeganə Süleymanova - qhtxeber.az, Ruslan Xəlilov - "Gündəlik Teleqraf", Elşən Şirbağırov - İTV Carçıfilm, rejissor assienti, Mithət Abdullayev - müstəqil jurnalist) təşkilatçılar tərəfindən mobil telefon, "Veysəloğlu" Şirkətlər Qrupu tərəfindən isə hər bir qalibə hədiyyə paketləri hədiyyə olunub.

# Məmmədyarov: "İşğalı dayandırın"

"2 aprel 2016-cı ildə Ermənistan atəşkəsi kobud surətdə pozaraq Azərbaycan ordusunun mövqelərini və təmas xətti boyunca mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrini atəşə məruz qoymaqla destruktiv siyasətini bir daha ortaya qoymuş oldu. Bu təxribat əməlinə Azərbaycan ordusu tərəfindən əks-həmlə ilə adekvat cavab verilib və erməni silahlı qüvvələrinin hücumu dəf edilib."

Bu sözləri Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının 13-cü zirvə toplantısına hazırlıq iclasında çıxışı zamanı deyib.

Elmar Məmmədyarov bildirib ki, Ermənistan atəşkəs rejimini pozmaqda davam edir və diqqəti sülh prosesinə lazım olan əsas məsələlərdən yayındırmaqla dünyaya öz əsas niyyətini nümayiş etdirir: "Biz beynəlxalq ictimaiyyəti Ermənistandan Azərbaycan ərazilərinin qeyri-qanuni işğalını dayandırmağı, öz qoşunlarını bütün işğal olunmuş ərazilərdən çıxartmağı və BMT TŞ-in müvafiq qətnamələrinin tələblərinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq münaqişənin nizamlanması prosesində konstruktivlik nümayiş etdirməyi tələb etməyə çağırırıq. Fürsətdən istifadə edib, İƏT baş katibinə və üzv dövlətlərə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə verdikləri dəstəyə, Ermənistanın təcavüzünü və Azərbaycan torpaqlarının işğal edilməsini qınadığına görə təşəkkürümü çatdırmaq istəyirəm. Ermənistanın ölkəmizə qarşı təcavüzünə dair təmas qrupunun yaradılması barədə bu konfransın qərarını təqdir etmək istərdim".

# Bəzi məlumatların KİV-də yayılması qadağan edilir

Milli Məclisin Mədəniyyət komitəsinin dünən keçirilən iclasında "Kütləvi informasiya vasitələri haqqında" qanuna əlavə və dəyişiklik müzakirəyə çıxarılıb.

Komitə sədri Rəfael Hüseynov layihəni təqdim edib.

Qanunun 11-ci maddəsinə (İnformasiyanın yayılmasına, informasiya mənbəyinin açıqlanmasına yol verilməyən xüsusi hallar) əlavə olunan bəndə görə, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" qanuna uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərini olduğu kimi yayılmasına yol verilməyəcək.

Maddənin 4-cü bəndi isə dəyişdirilərək belə verilir: "yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yaymasına yol verilmir".

Bəndin hazırda qüvvədə olan variantı isə belədir: "Cinayət etməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayanların və ya qanuni nümayəndələrinin razılığı olmadan onların şəxsiyyəti barədə hər hansı məlumatı yaymasına yol verilmir".

Rəfael Hüseynov bildirib ki, belə bir əlavə və dəyişikliklərdə məqsəd bəzən mətbuat vasitələrində hər hansı məlumatın vaxtından əvvəl, şişirdilmiş formada verilərək mövzunun daha arzuolunmaz nəticəyə çatmasının qarşısını almaqdır: "Bu bütün hallarda KİV-in işini məhdudlaşdırmaq demək deyil".

# MSK üzvlüyünə namizədlər məlum olub

Mərkəzi Seçki Komissiyasının (MSK) üzvlüyünə namizədlərin adı məlum olub.

Milli Məclisdən verilən məlumata görə, Seçki Məcəlləsinə əsasən, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyası, heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatlar, Milli Məclisdə azlıq təşkil edən Ana Vətən Partiyası, Azərbaycan Demokratik İslahatlar Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası, Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Sosial Rifah Partiyası, Vəhdət Partiyası, Vətəndaş Birliyi Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası MSK üzvlüyünə namizədlərini parlamentə təqdim edib.

Milli Məclisin aprelin 15-də plenar iclasda müzakirəyə çıxarılacaq "MSK-nın üzvlərinin və əvəzedici üzvlərinin seçilməsi haqqında" qərar layihəsində MSK üzvlüyünə namizəd qismində Fuad Cavadov, Şaitdin Əliyev, Ramiz İbrahimov, Validə Kazımova, Hüseyn Paşayev, Məzahir Pənahov, İlham Məmmədov, Natiq Məmmədov, Arifə Muxtarova, Nizami Nadirov, Qabil Orucov, Azər Tağıyev, Bəxşeyiş Əsgərov, Tofiq Həsənov, Almas Qəhrəmanlı, Etibar Quliyev, Mikayıl Rəhimov, İlkin Şahbazov, MSK-nın əvəzedici üzvlüyünə isə Süleyməddin Hümbətov, Bəhruz Quliyev, Aydın Muradov və Niyaməddin Orduxanovun adı yer alıb.